Tapşırığın adı: **ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ STRATEJİ PLANLAŞDIRMA ÜZRƏ MİLLİ MƏSLƏHƏTÇİ**

İcra olunduğu yer: **Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə (TSİİL)**

İcra müddəti: mart 2015 – mart 2016

Məkan: Təhsil Nazirliyi, Bakı şəhəri

Tapşırıq və Vəzifələr:

• Seçilmiş məktəblərin cari vəziyyətinin qiymətləndirilməsi və təhlil hesabatının hazırlanması;

• Məktəbin öz fəaliyyətini strateji və çevik surətdə idarə etmək bacarıqlarının artırılması üzrə təlimlərin keçirilməsi;

• Seçilmiş məktəblər üçün strateji planların hazırlanması;

• Strateji planların icrası prosesində peşəkar dəstək/mentorluq xidmətinin təmin edilməsi;

• Bu layihə ilə bağlı digər vəzifələrin Təhsil Nazirliyinin tələb etdiyi qaydada yerinə yetirilməsi.

İxtisas tələbləri:

• Təhsil, idarəetmə və ya digər müvafiq sahədə elmi dərəcə;

• Təhsil sahəsində, xüsusilə təhsilin idarə edilməsi sahəsində, müəssisənin inkişaf etdirilməsi, təhsilin əks-mərkəzləşdirilməsi, o cümlədən təşkilati mədəniyyətin yaradılması sahələrində üç (3) illik iş təcrübəsinin olması;

• Təhsil sisteminin strateji planlaşdırma proseslərinin hazırlanması, təhsilin idarəolunması və əməliyyatlar üzrə müvafiq məktəb hesabatvermə sistemlərinin tətbiq edilməsi sahələrində təcrübəsi;

• İnkişaf etməkdə olan bənzər ölkələrin təhsil və idarəetmə sistemləri üzrə biliyə və ya təcrübəyə malik olan namizədlərə üstünlük veriləcəkdir;

• Azərbaycan və ingilis dillərində səlis şəkildə danışıq və yazı vərdişlərinin olması;

• Kompüter proqramları ilə yüksək dərəcədə işləmək bacarığının olması.

Müraciət forması:

Maraqlanan şəxslər vakansiyanın adını göstərməklə tərcümeyi-halı (CV) y.manafova@edu.gov.az ünvanına göndərə bilər.

Son təqdim edilmə tarixi: 05 fevral 2015-ci il, 18:00

Əlaqə üçün məlumat:

Azərbaycan Respublikasının Təhsil Nazirliyi,

Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə,

AZ1025, Bakı şəhəri, Nobel prospekti, 15.

Əlaqə telefonları: (99 412) 488 66 47/48; Faks: (99 412) 488 66 49

E-poçt: y.manafova@edu.gov.az